# Azərbaycan dili

**Qapalı (çoxseçimli) test tapşırıqları**

1. Nümunələrdə "*düz*" sözünün işlədilməsi ilə bağlı uyğunluğu müəyyənləşdirin.
   1. ... bir həftə yol getdik.
   2. Əyri otur, ... danış.
   3. Bizə ... adam lazımdır.
   4. Bu daşları yerinə ... .
   5. Bu ... bir vaxtlar gül-çiçəklə dolu idi.
   a. feil
   b. sifət
   c. zərf
   d. isim
   e. ədat
   A) 1 – e; 2 – b; 3 – a; 4 – c; 5 – d
   B) 1 – e; 2 – c; 3 – b; 4 – a; 5 – d
   C) 1 – e; 2 – b; 3 – c; 4 – a; 5 – d
   D) 1 – d; 2 – c; 3 – b; 4 – a; 5 – e
   E) 1 – c; 2 – b; 3 – d; 4 – a; 5 – e

**2.** *"Səni yalqız qoyub getdim, məni bağışlamayacaqsan"* tabesiz mürəkkəb cümləsinin tərkib hissələrindəki hadisələr:
   A) Biri digərini aydınlaşdırır.
   B) Eyni zamanda baş verir.
   C) Ardıcıl baş verir.
   D) Biri hadisənin səbəbini, digəri nəticəsini bildirir.
   E) İki işdən birinin mümkünlüyü bildirilir.

**3.** Hansı cümlələrin xəbəri düzgün müəyyən ***edilməmişdir***?
   1. Bacılar analarına diqqətlə qulaq asırdılar.
   2. Əmimgil qonaqları hörmətlə yola saldılar.
   3. Qəbələnin Vəndam kəndi iri yaşayış ərazilərindən biridir.
   4. İbrahim kiçik qardaşına diqqətlə baxırdı.
   5. Müəllim həmişə səliqəli geyinməli, mədəni davranmalıdır.
   6. Eşidilən yalnız bulağın şırıltısı idi.
   A) 3, 4, 5 B) 1, 2, 5, 6 C) 1, 2, 4, 5
   D) 2, 3, 4, 6 E) 1, 3, 6

**4.** Hansı cümlələrdə söz birləşməsi ilə ifadə olunan vasitəsiz tamamlıq işlənib?
   1. O, mazutlu əlini üzünə vuraraq yanağını daha da qaraltdı.
   2. Oqtay həm tətilin, həm də ətrafında baş verən digər hadisələrin mənasını dərk edə bilmirdi.
   3. Mən onun gözlərində məhəbbəti də, son sözümü gözləyən intizarı da görürdüm.
   4. Əsgərlərin yaxşı xəbərlə gəlmədiyini hamı duyurdu.
   5. Yayda bu suyun hər damcısı bir qızıla bərabər olur.
   A) 2, 3, 4
   B) 3, 4, 5
   C) 1, 5
   D) 1, 3, 5
   E) 2, 4

I II

**5**. Venn diaqramı əsasında *"Sadə adam <u>sadə olduğunu</u>, həmçinin <u>sadəliyinin böyüklük olduğunu</u> bilmir"* cümləsində üstündə Roma rəqəmləri yazılmış ifadələrlə bağlı doğru fikirləri müəyyən edin.




A) 1, 2, 4
B) 3, 4
C) 1, 5, 6
D) 4, 5, 6
E) 3, 5

**6.** Ardıcıllığı müəyyən edin.
- Küsənin payını yeyərlər. (Atalar sözü)
- Bu axşam Xəzər dənizi sahilində atəşfəşanlıqdır.
- Böyüyünü tanımayan qibləsini də tanımaz. (Atalar sözü)
- Toplantıda şagirdlərin olimpiadada göstərdiyi uğurlardan danışdılar.

1. Şəxssiz cümlə
2. Ümumi şəxsli cümlə
3. Müəyyən şəxsli cümlə
4. Qeyri-müəyyən şəxsli cümlə

A) 2, 1, 4, 3 B) 4, 3, 1, 2 C) 3, 1, 2, 4
D) 4, 2, 1, 3 E) 2, 1, 3, 4

**7.** Doğru fikirləri müəyyən edin.
1. Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında həmişə durğu işarələri qoyulur.
2. Vasitəsiz nitqli cümlələrdə vasitəsiz nitq müəllifin sözündən əvvəl işlənərsə, ən az bir sözün ilk hərfi böyük yazılmalıdır.
3. Bir durğu işarəsindən vasitəsiz nitqli cümlələrdə ancaq bir dəfə istifadə edilir.
4. Vasitəsiz nitqli cümlələrin tərkibində dırnaq işarələrindən istifadə edilməlidir.

A) 1,3,4
B) 2,3,4
C) 1,4
D) 1,2
E) 2,4

## Açıq tipli test tapşırıqları

**8.** Altından xətt çəkilmiş sözlərin ismin hansı halında olması baxımından işlənmə ardıcıllığını müəyyənləşdirin.

1. adlıq 2. yiyəlik 3. təsirlik

- *<u>Sözün</u> də su kimi lətafəti var ...*
- *El bir olsa, <u>dağ</u> oynadar yerindən ...*
- *<u>Sözün</u> dillər əzbəri, məclislər yaraşığıdır.*

**Doğru cavab:** 2, 3, 1

**9.** *“Bizim doğma vətənimiz Odlar yurdudur”* cümləsinin tərkibindən söz çıxarmaqla onu geniş cümləyə çevirmək mümkündür. Həmin geniş cümlədəki cümlə üzvlərinin ardıcıllığını müəyyən edin.
1.mübtəda
2.tamamlıq
3.xəbər
4. təyin
5.zərflik
**Doğru cavab:** 4, 1, 3

## Şam da işıq verir

Qocaman knyaz bir dəfə öz əyanına deyir:
– Cavanlığımda axmaq olduğum üçün oxumağa kifayət qədər vaxt ayırmamışam. İndi isəöyrənmək vaxtı keçmişdir. Dünən yetmiş yaşım tamam oldu.
Əyan dedi:
– Hər halda şam işığı yaxşıdır.
Knyaz əyana təəccüblə baxaraq dedi:
– Sizin sözünüzdə heç bir məna yoxdur. Mənim dediyim sözlə şamın nə əlaqəsi var?
Əyan cavab verdi:
–Uşaqlıqda və gənclikdə əldə etdiyimiz bilik səhər günəşinə bənzəyir. O, cəsarətlə gecənin qaranlığını qovur, şəfəq yayır, hamını oyadır. Orta yaşda aldığımız bilik isə batmaqda olan günəşə bənzəyir. O, şəfəq saçmır, lakin işıq verir, o yandırmır, lakin isidir və sizi soyuqdan qoruyur. Qocalıqda əldə edilən bilik isə şama bənzəyir. Onun işığı zəifdir, lakin onu üfürsəniz, ətrafı qaranlıq bürüyəcək. İndi aydın deyilmi ki, zülmətdənsə şamın işığında yaşamaq daha yaxşıdır.

**1.** Mətndəki əsas fikri ifadə edən aforizm, atalar sözü və ya ibrətamiz cümlə yazın.
______________________________________________________________

***Mümkün olan doğru cavab nümunələri:***
Öyrənmək (oxumaq) heç vaxt gec deyil.
Öyrənmək üçün yaş məhdudiyyəti yoxdur.
Öyrənmək həmişə mümkündür (lazımdır).
Elmi beləkdən qəbrədək öyrənmək lazımdır. *(SədiŞirazi)*
Elm öz sahibinə böyük zinətdir.
Elmsiz adam meyvəsiz ağac kimidir.
Ziyanın yarısından da qaçmaq xeyirdir və s.

**2.** Mətnin üslubunu müəyyənləşdirin (✓) və fikrinizi əsaslandırın.

*Mətn*
☐ *bədii üslubdadır.*
☐ *elmi üslubdadır.*
☐ *publisistik üslubdadır.*

*Çünki* ______________________________________________________________
______________________________________________________________________

***Mümkün olan doğru cavab nümunələri:***
- *Mətn* ✓ *bədii üslubdadır.*
- *Çünki burada obrazlı ifadələrdən, məcazi mənalı birləşmələrdən, bədii təsvir vasitələrindən istifadə olunmuşdur. Eləcə də mətn nəsr dili (təhkiyə) formasında təzahür etmişdir.*

**3.** Çərçivə daxilində verilmiş sözün qarşılığını müəyyən edin və həmin qarşılıq sözü cümlədə yazın.
*Sözün qarşılığı:* ______________________________________________________________
*Cümlə:* ______________________________________________________________________

***Mümkün olan doğru cavab nümunələri:***
- *Sözün qarşılığı:* parıltı, bərq (vurmaq), şölə, işıq, şüa, şölə, nurvə s.
- *Cümlə:*Almazların parıltısı gözlərimizi qamaşdırırdı. Azərin gözlərində ani bir şölə parıldayıb söndü.